UOT 821.512.162

**Nəsirova Səadət,**
*AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu*
*Bakı ş., İstiqlaliyyət küç. 26.*
e-mail: nice.sadt@mail.ru

# XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ AZƏRBAYCANDA DƏRSLİKLƏRİN YARANMASINDA GÖRKƏMLİ PEDAQOQLARIN ROLU

**Açar sözlər:** *Mahmud bəy Mahmudbəyov, Abbas Səhhət, "Rəhbər" jurnalı, dərslik, ədəbiyyat, pedaqoq, Azərbaycan pedaqogikası.*

**Giriş.** *Tarixdə ictimai-siyasi quruluşların bir-birini əvəz etməsi nəticəsində cəmiyyət həyatında baş verən dəyişikliklər digər sahələrlə yanaşı, ədəbiyyat sahəsinə də təsirsiz ötüşməmişdir. Lakin tarixin ən çətin sınaqlarından hər zaman layiqincə çıxmağı bacaran ədəbiyyatımız daim yeniliklər axtarışında olmuş, zənginləşmişdir.*

*Bildiyimiz kimi, ədəbiyyat insanın bağlı olduğu konkret tarixi mühiti əks etdirir. Cəmiyyətdəki müxtəlif problemlər, baş verən ciddi dəyişikliklər, bunların insan həyatına təsiri digər sahələrdən fərqli olaraq, ədəbiyyatda müxtəlif, rəngarəng bədii boyalarla öz əksini tapır. Bu sahənin əsas obyekti sayılan insan, onun mənəvi aləmi, taleyi, mübarizəsi, dünyaya baxışı hər zaman diqqət mərkəzində qalır. Bu baxışların düzgün yönəldilməsində ziyalıların, pedaqoqların rolu əvəzolunmazdır. Çünki onların daim yeni məzmun və forma axtarışında olmaları, ibrətli mənbə olan həyatdan bəhrələnmələri, onu dərindən dərk etmələri tarixin gerçəkliklərini bədii formada əks etdirən qiymətli sənət nümunələrinin yaranmasına səbəb olur.*

*XX əsrin əvvəllərində Azərbaycan cəmiyyətində baş verən müxtəlif hadisələr ədəbiyyat və maarif sahəsində mütərəqqi fikirli şəxslərin fəaliyyət dairələrini genişləndirir, həyata baxışlarını daha fərqli bir şəkildə formalaşdırırdı. Bu vətənpərvər ziyalıların qarşısında duran ən ümdə vəzifə gənc nəsli maarifləndirmək, əxlaq, tərbiyə məsələləri ilə tanış etmək idi. Belə ziyalılardan olan görkəmli maarifpərvərlərimiz Mahmud bəy Mahmudbəyov, Abbas Səhhət, Fərhad Ağazadə, Abdulla Şaiq, Süleyman Sani Axundov və başqaları müəllimlərin I və II qurultayının məramnaməsi əsasında 1907-ci ildən başlayaraq bir-birinin ardınca dərs vəsaitləri nəşr etdirərək, məktəblilərin dərsliyə olan ehtiyacını ödəməyə, gənc nəslin daha savadlı, gözüaçıq, cəmiyyətə xeyirli gənclər kimi yetişmələrinə çalışırdılar. Belə pedaqoqların önündə ömrünün 42 ilini tədris prosesinə, məktəb və xalq maarifinə həsr etmiş, "Rəhbər" jurnalının yaradıcısı, ədəbiyyat sahəsində milli ideologiyamızın yorulmaz təbliğatçısı Mahmud bəy Mahmudbəyov və görkəmli şair Abbas Səhhət gedirdi. Onların fəaliyyətində milli ədəbiyyatımızdan olan əsərlərin toplanması, nəşri və eləcə də dünya ədəbiyyatından toplanmış əsərlərin tərcüməsi və təbliği məsələləri aparıcı yer tuturdu.*

**Əsas mətn.** Mahmud bəy Mahmudbəyov "Rəhbər" jurnalına dövrünün öndə gedən ziyalılarından sayılan Firidun bəy Köçərli, Soltan Məcid Qənizadə, Abbas Səhhət, Mirzə Ələkbər Sabir və başqalarını cəlb edərək, onların şeir, hekayə və məqalələrini çap etdirir, onlarla birgə müxtəlif dərsliklər hazırlayırdı.

Firidun bəy Köçərlinin "Rəhbər" jurnalında nəşr edilmiş "Ədəbiyyatımıza dair" məqaləsində yazılırdı: " "Azərbaycan türklərinin ədəbiyyatı yoqdur". Biz hamumuz bu təsəvvürdəyiz. Doğrudur ki, Azərbaycan türklərinin Sədisi, Hafizi, Şekspiri ... yoqdur.

Əmma Vaqif, Vidadi, Nəbati, Seyyid Şirvani və çoq-çoq bunlar kibi şairlər var ki, hər bir millət olur-olsun onlarə fəxr edə bilər. İş bundadır ki, bu şairlərimizin nə əsərlərindən və nə də məsləklərindən xəbərimiz var. Biçarə şairlərimiz öz əsərlərində bir parə nadanlərin məzəmmət və sərzənişlərinə təhəmmül edüb yüz min xunabələr ilə yazduqları gözəl əsərləri qoyub gedüblər. Bu əsərlər isə orda-burda dağınıq və gün-gündən məhv olmaqdadırlər. Pəs, bizə lazımdır ki, keçmiş şairlərimizin əvvəl əsərlərini ehya edək, sonrə yəvaş-yəvaş ədəbiyyatımızın zəmanəyə müvafiq sərvətlənməsinə çalışaq...” (5, s.3).

Göründüyü kimi, jurnalın əsas məqsədlərindən biri görkəmli ədiblərimizin əsərlərini üzə çıxarmaq, onları geniş oxucu kütləsinə təqdim etmək, Azərbaycan ədəbiyyatının dünya ədəbiyyatından heç də geri qalmadığını bütün dünya xalqlarına çatdırmaq, gənc nəsli maarifləndirmək idi. Belə ki, elə həmin jurnalda dərc olunan “İfadeyi-məram”adlı məqalədə yazılırdı: “Yaşaduqımız əsr bir əsrdir, müntəzəm məktəbi, milli ədəbiyyatı, müəyyən məsləkdə ictimai məişəti və hər cür iqtisadi mücadiləyə hazırlıqı olmıyan millət məişət mücadiləsində tez-gec məhv olasıdır. Bir vəqt var idi ki, qüvvəli bir millət müsəlləh olub qol gücilə o biri zəif milləti özinə qul, millətini, dilini, dinini nabud ediyürdi. Likən imdi bir millətin o birisinə ağa olması qol gücilə degil, məktəb, ədəbiyyat, elm, ictimaiyyət və bunlar kibi mənəvi qüvvələr ilədir. Pəs hər bir millət ki, öz milliyətini, dilini itirüb yoq olmaq istəməyür, gərəkdir məktəblərinin müntəzəm olmasınə, ədəbiyyatının sərvətlənməsinə, ədəbiyyatı vasitəsilə milliyətini tanımaqə və millətinin ictimai işlərinin vüsətlənməsinə çalışsun.... Öhdəmizə götürdügümüz böylə bir vəzifəni əda etməgdə bacarıqımızı və səyimizi əsirgəməyəcəgiz. Və o ümiddəyiz ki, səyimiz bihudə getməz: azmı, çoqmı, millətimizin tərəqqisinə, ədəbiyyatdən xəbərdar olmasınə, məktəblərimizin müntəzəmliginə, tərbiyə və təlim üsulının cəmaət arasındə intişar olmasınə jurnalımız bir vasitə olacaq”(5,s.1).

Həmin dövrdə nəşr olunan dərs vəsaitlərini qarşıda qoyduğu məqsədə görə iki qismə ayırmaq olar:

1. Rus məktəblərində oxuyan şagirdlərə və gələcəkdə tərcüməçi olmaq, dövlət idarələrində müəyyən vəzifələrdə işləmək üçün hazırlanan gənclərə Azərbaycan dilini öyrətməkdən ötrü yazılan lüğət və dərsliklər;
2. Mollaxana, “Üsuli-cədid” və Rus-müsəlman məktəblərində azərbaycanlı uşaqlara ana dilini öyrətmək məqsədi ilə yazılan dərsliklər.

Birincilərə mükəmməl misal olaraq Üzeyir Hacıbəyovun “Türki-rusi və rusi-türki lüğət”ini (1907); ikincilərə isə M.Mahmudbəyovun başqa müəlliflərlə birlikdə yazdığı “İkinci il” (1907), “Yeni məktəb” (1909), “Türk ədəbiyyatına ilk qədəm” (1914) və onlarla başqa dərslikləri nümunə göstərmək olar.

Qeyd etdiyimiz kimi, Azərbaycan pedaqogikasının inkişafında əvəzolunmaz rolu olan M.Mahmudbəyov gəncləri maarifləndirmək məqsədilə dövrünün öndə gedən ziyalılarını pedaqoji sahəyə cəlb edərək, onlarla birgə müxtəlif dərsliklər nəşr etdirirdi. Təsadüfi deyil ki, həmin dövrdə M.Ə.Sabir, A.Şaiq, S.S. Axundov kimi bir sıra görkəmli uşaq ədəbiyyatı müəllifləri meydana çıxmış, onlarca gözəl dərsliklər yaranmışdır.

Bu haqda Abdulla Şaiq “Xatirələrim” adlı əsərində yazırdı: “Sabirin, Səhhətin ikinci səmimi dostu Bakıda müəllimlik edən Mahmud bəy Mahmudbəyov idi. Mahmud bəy az danışan, çox çalışan, təmiz vicdanlı bir insan idi. İpək kimi yumşaq xasiyyəti var idi. Yaşca bizdən böyuk olduğuna görə müəllimlər ona “Mahmud əmi” deyirdilər. Çox fəal bir maarif xadimi idi. Pedaqogikanın son nailiyyətlərindən xəbərdar olan bu qayğıkeş müəllim yeni dərsliklərin yaranmasında da çox böyük xidmətlər göstərmişdi.

Yay tətili münasibətilə şamaxılı müəllimlər Şamaxıya toplandıqları zaman Sabirlə Səhhət üçün sanki bayram başlanırdı. Müəllimlər, eləcə də Mahmud əmi hər ikisinin ruhuna və zövqünə müvafiq rus yazıçı və şairlərinin yaradıcılığı ilə onları tanış etməyə çalışırdı. Sabir və Səhhəti uşaq ədəbiyyatı ilə də maraqlandıran Mahmud əmi olmuşdur. Mahmud əmi hər iki şairin uşaqlar üçün yazdıqları əsərləri və tərcümələrini öz dərsliklərində çap edirdi" (1, s.195).

Məni xəlq eyləmiş əvvəlcə Xuda,
Sonra vermiş vətənim nəşvü nüma.
Vətənim verdi mənə nanü nəmək,
Vətəni məncə unutmaq nə demək?!

- deyən, vətənini, torpağını canından çox sevən, vətən övladlarının maariflənməsi yolunda daim can qoyan, bu səbəblə cavan yaşlarından başlayaraq ömrünün sonuna qədər müəllimlik edən, dərsliklər yaradan Abbas Səhhətin Mahmud bəy Mahmudbəyovla dostluğu da təsadüfü deyildi. O, məktəbdə tələbələrə çatdırmaq istədiyi fikirləri öz bədii əsərlərində də verir, sırf əxlaqi-tərbiyəvi səciyyədə əsərlər yazır və ümumiyyətlə, öz yaradıcılığını məktəblə sıx bağlamağa çalışırdı. Bu səy bir tərəfdən Azərbaycanda çox qüvvətli uşaq ədəbiyyatının yaranmasına təsir göstərirdisə, digər tərəfdən məktəbli gənclərin inkişafına, onların dünya görüşlərinin formalaşmasına səbəb olurdu.

Şərqin Nizami Gəncəvi, Hafiz Şirazi, Sədi Şirazi kimi şairlərindən bəhrələnən, türk xalqlarının ədəbiyyatı ilə yaxından maraqlanan Abbas Səhhət: "Mən müəllimlik etməklə öz xalqımın ən ağır xəstəliyini, onun savadsızlığını müalicə edirəm. Bir xalqı çökdürmək üçün onu silahla, top-tüfənglə qırmağa ehtiyac yoxdur. Daha rahat yol var – savadsızlıq. Bütün addımlar cəmiyyətin savadsız olması üçün atılarsa, təhsil pula çevrilərsə, savadsızlıq çoxalar, mütaliə azalar. Zəkalı, ziyalı insanlara hörmət və rəğbət azalar. Lazımsız və yersiz zarafatlara gülüş çoxalar və ehtiyac artar" - deyirdi (2, s.9).

Elmi, maarifi insanın əlində ən mühüm qüvvə hesab edən, bu işdə ən böyük məsuliyyətin müəllimlərin üzərinə düşdüyünü dərindən dərk edən Abbas Səhhət onları qonşu millətlərin müəllimlərindən ibrət almağa çağırırdı.

Səhhətin hazırladığı dərsliklər gənclərin əxlaq və mənəviyyatının saflaşmasında, xarakterinin mətinləşməsində, nəhayət, bədii zövqünün cilalanmasında əhəmiyyətli rol oynayır, onlarda insan əməyinə ehtiram, ata-anaya, müəllimə, ümumiyyətlə, böyüklərə hörmət, dostluqda insan ləyaqətinə kəsir gətirən eybəcər hallara nifrət kimi vacib duyğular formalaşdırırdı. Ən maraqlısı isə odur ki, Səhhət dərsliyə daxil etdiyi istər özünün müəllifi olduğu şeir və hekayələrini, istərsə də tərcümə etdiyi şeir və hekayələri gənclərin qavrayış tərzinə uyğun bədii vasitələrlə təqdim edirdi. Bu barədə sonralar görkəmli pedaqoq Fərhad Ağazadə yazırdı: "On il vardır ki, Şamaxıda realni məktəb açılmışdır və açıldığı gündən də oranın türk lisanı müəllimliyinə mərhum Mirzə Abbas dəvət olunmuşdur. Tərcümələrinin bir çoxunu müəllimlik əsnasında və bəlkə də öz məktəb şagirdləri üçün yazmışdır. O vaxta qədər təlim kitablarında düzgün və şagird zehninə uyğun bir nəzmə rast gəlmədiyindən, burası mərhumun diqqətini cəlb etmişdir, bu yolda çox çalışmışdı, yeddi yaşlılara məxsus sadəcə nəzmlər ilə bərabər, yuxarı siniflərin şagirdlərinə az şey yazmamışdır. Bu gün təlim kitablarımızın bir çoxu "Türk əlifbası", "İkinci il", "Yeni məktəb" və "Ədəbiyyat məcmuəsi" mərhum Mirzə Abbasın səlim və rəvan nəzmləri ilə müzəyyəndir" (2, s.18).

Hazırda həmin dövrdə ərəb qrafikası ilə nəşr olunmuş dərsliklərin transfoneliterasiya edilərək müasir oxuculara çatdırılması, pedaqogika, tədris metodikası istiqamətində

araşdırma aparan mütəxəssislərə daha da əlçatan edilməsi qarşıda duran ən mühüm vəzifələrdəndir. Çünki yalnız bundan sonra ədəbiyyatın məktəblərimizdə tədris tarixinin tam mənzərəsi ortaya qoyula biləcək.

Bu məqsədlə artıq AMEA Məhəmmməd Füzuli adına Əlyazmalar İnstitutunda XX əsrin əvvəllərində nəşr olunmuş dərsliklərin transfoneliterasiyasına başlanmışdır. Hazırda bu istiqamətdə işlər davam etdirilir. Belə dərsliklərə Mahmud bəy Mahmudbəyovun Abbas Səhhətlə birgə 1914-cü ildə nəşr etdirdiyi ali və edadi məktəblərin aşağı sinifləri üçün nəzərdə tutulan ilk müntəxəbat olan "Türk ədəbiyyatına ilk qədəm" (X-850/3455; VII-254/2469; XII-305/9474; X-580/3321 şifrə), 1909-cu ildə ibtidai məktəblərin üçüncü sinifləri üçün nəzərdə tutulmuş "Yeni məktəb" (XVI-1080/5218; XII-351/9309; XVI-92/6176; XII-285/3782; VII-309/2499; XII-327/7903 şifrə ) və "İkinci il" (X-687) adlı dərsliklərini misal göstərmək olar. Qeyd edək ki, "Türk ədəbiyyatına ilk qədəm" kitabı artıq yenidən nəşr edilərək oxuculara təqdim edilmişdir. "Yeni məktəb" və "İkinci il" dərsliklərinin isə transfoneliterasiyası başa çatmışdır.

"Türk ədəbiyyatına ilk qədəm" kitabındakı şeir və hekayələr müxtəlif mövzular üzrə qruplaşdırılmış, "Məişət", "Təsvirlər", "Səyahət", "Tarixi hekayə və şeirlər", "Milli hekayə və şeirlər" sərlövhələri altında təqdim olunmuşdur.

"Məişət" bölməsinə daxil edilmiş "Doğruluq" (İbrahim), "Sınıq savça", "Qardaşlıq" (Ə.Cavad), "Korlar və fil" (Tolstoy), "Həyatmıdır?!" (X.Ziya bəy), "Ramazan sədəqəsi" (T.Fikrət) və s. kimi hekayə və şeirlər gəncləri həyatda hər zaman doğru olmağa, əməyi sevməyə, həyatın çətinlikləri qarşısında daim mübariz olmağa çağırır. Bu işdə məktəblərin nə qədər böyük rol oynadığına isə kitabda "İbrahim" imzası ilə çap olunmuş "Sınıq savça" (Sınıq su qabı) hekayəsi bariz nümunədir. Hekayədə uşaqlara elmin faydasından sadə və maraqlı bir şəkildə bəhs olunur. Bir axşam şaxtalı havada su qabının öz-özünə sınması ilə evdəkilərin hamısı xürafata qapılaraq təlaşla əl-ayağa düşsələr də, məktəbli gənc heç də təəccüblənmir. Məktəbdə öyrəndiyi bilik onun köməyinə çatır. Üzünü anasına tutaraq: "Təlaş etməyiniz, annəcigim, şimdi sizə bunun hikmətini anlatacaqım. Məktəbdə bizə bundan bəhs etdilər; hətta bir nümunəsini də göstərdilər. Su sair cisimlərə bənzəməz. Donınca həcmi təzayüd edər. Biliyorsunuz, bu gecə soyuq çoq şiddətli idi. Savçanın içindəki su tezcə incimad etdi; qabı kəndisinə dar gələrək sıqamadı, təbii yer açmaq istədi. Savçanın içi darısqal, sıq etdiginə görə, bəltəbii, müqavimət edəmədi, sındı", - deyir. Məktəblinin məsələni aydın dillə anasına izah etməsi evdəkilərin çox xoşuna gəlir. Anası onunla qürur duyaraq deyir: "Məktəbdə ögrətilən şeyləri böylə gözəlcə hifz etdigini gördigim içün doğrısı şu qəzadan məmnun oldım… Afərin, yavrum! Bilürmisin, bən bu yaşıma qədər şunı ögrənməmişdim. Bana, həqiqətən, fayda bir şeyi ögrətdin" (3.s.5).

"Təsvirlər" sərlövhəsi altında təqdim edilən "Çamlıcada bir gecə" (S.Paşazadə: Səzayi), "Donmuş şəlalə" (X.Ziya bəy), "Təmmuz", "Millət şərqisi" (T.Fikrət) və s. kimi diqqəti cəlb edən hekayə və şeirlər məktəbli gənclərin bədii-estetik zövqünün formalaşmasına xidmət edir.

"Səyahət" bölməsinə daxil edilmiş əsərlər müxtəlif türkdilli xalqlar, onların adət-ənənələri haqqında məlumatlarla zənginliyi baxımından dəyərlidir.

"Tarixi hekayə və şeirlər" sərlövhəsi altında Məhmət Akifin "Həzrət Ömər və qoca qarı", Əhməd Hikmətin "Altun ordu", Ziya Göyalpın "Altun dastan", Mirzə Ələkbər Sabirin, Firdovsinin məşhur "Şahnamə"sindən türk dilinə tərcümə etdiyi "Siyavuşnamə" dastanı və s. təqdim edilmişdir ki, bunlar da məktəblilərə tarixi keçmişimizi öyrənməkdə kömək edir.

Kitabın sonuncu, “Milli hekayə və şeirlər” bölməsindəki Tofiq Fikrətin “Fərda (Bu günün gənclərinə)”, Namik Kamalın “Vətən mərsiyəsi”, Əli Kaminin “Əcdadımızın kəmikləri”, Rza Tofiqin “Divan” adlı şeirləri də gəncləri vətənpərvərliyə səsləməsi baxımından diqqətəlayiqdir. Bu bölümdəki ilk hekayə də “Vətən” adlanır. Hekayədə vətən məhəbbətindən belə bəhs olunur: “Şirxarlar beşigini, çocuqlar əgləndigi yeri, gənclər məişətgahını, ixtiyarlar guşeyi-fərağını, övlad validəsini, pədər ailəsini nədürlü hissiyyat ilə sevərsə insan da vətənini odürlü hissiyat ilə sevər. İnsan vətənini sevər, çünki, ətrafına baqdıqca hər guşəsində ömri-güzəştəsinin bir yadigari-həzinini təhəccür etmiş kibi görər. İnsan vətənini sevər, çünki, hürriyyəti, rahəti, həqqi, mənfəəti vətən sayəsində qaimdir. İnsan vətənini sevər, çünki, səbə- bi-vücudı olan əcdadının məqbəreyi-sükunı və nəticeyi-həyatı olacaq övladının cilvəgahi-zühurı vətəndir…” (3,s.140).

Tofiq Fikrətin “Fərda (Bu günün gənclərinə)” şeiri mövzu etibarı ilə bu gün də öz aktuallığını qoruyub saxlayır. Gələcəyin daha möhkəm özüllər üzərində qurulmasının gənclərin özlərindən asılı olduğu şeirdə belə ifadə olunur:

Fərda sənin, sənin bu təcəddüd, bu inqilab...
Hər şey sənin degilmi ki, zatən?...Sən ey şəbab!
Ey çöhreyi-bəhici-ümid, iştə məkəsin
Qarşında bir səmayi-səhər, safü bisəhab,
Ağuşi-lərzədarı açıq, bəkləyor… Şitab!
Ey fəcri-xəndəzadi-həyat, iştə hər kəsin
Ənzarı səndə, sən ki, həyatın ümidisən... (3,s.141).

Kitabın ən önəmli cəhəti mövzulara uyğun olaraq dərsliyə daxil edilib məktəblilərə təqdim olunan əsərlərin Ziya Göyalp, Namik Kamal, Tofiq Fikrət, Rza Tofiq, Əhməd Cavad, Əhməd Hikmət, Mirzə Ələkbər Sabir və b. kimi Türk dünyasında öz imzası ilə möhürünü vurmuş şair və yazıçılara aid olmasıdır.

“Yeni məktəb” dərsliyinin əhəmiyyəti və başqa mövcud dərsliklərdən fərqi isə burada olan hekayə və şeirlərin müxtəlif mövzulara uyğun bölünməsilə yanaşı hər hekayə və şeirdən sonra həmin mətndə olan çətin sözlərin məktəblilər üçün izahının verilməsi, həmçinin xarici ədəbiyyatdan müxtəlif tərcümə nümunələrinin olmasıdır.

“Məktəb və ailə”, “Çalışqanlıq və bilik kəsbi”, “Kömək və ittifaq”, “El arasında”, “İnsan”,”Heyvanat”, “Nəbatat”, “Coğrafiya məlumatı” başlıqları altında bölgü aparılmış kitabda insana və ailəyə, elmə və məktəbə, təbiətə dair bir çox məsələlərə, əxlaqi-tərbiyəvi mövzuda maraqlı hekayə və şeirlərə yer verilmişdir.

“Məktəb və ailə” bölməsinə daxil edilmiş “Məktəb çocuqlarının mənzuməsi” (M.Kamaləddin), “Məktəb uşağı” (A.Səhhət), “Yatmış uşaq” (V.Hüqo) və s. kimi hekayə və şeirlər gəncləri həyatda hər zaman doğru olmağa, əməyi sevməyə, həyatın çətinlikləri qarşısında daim mübariz olmağa çağırır. Bu işdə məktəblərin nə qədər böyük rol oynadığına isə kitabda “Məktəbə dəvam ediniz” (Gurgani) hekayəsi bariz nümunədir. Hekayədə bir ata məktəbə həvəssiz gedən oğluna məktəbin, elmin faydasını başa salaraq onu məktəbə belə həvəsləndirir: “Oğlum! Qorqaq olma, məktəbə mərdanə get! Sən bu böyük məktəb ordusının bir əskəri, bir nəfərisən. Bu böyük ordu qan tökməgə, məmləkətlər almağa getməyür. Bu ordu elm, bilik səltənətini almağa yüriş edir. İgit oğlum, hər bir əskərin silahı olan kibi sənin də silahın var: kitabların, dəftər-qələmin sənin silahındır. Hər ordu içün müharibə meydanı lazım olan kibi məktəb ordusının də müharibə meydanı məktəbdir, müharibə etdigi düşmən cəhalətdir. Çalış, oğlum, ordu yoldaşların ilə bərabər cəhaləti yoq et, mərifətə sahib ol” (4., s.15).

"Çalışqanlıq və bilik kəsbi" sərlövhəsi altında təqdim edilən "Zəhmətkeş ayı" (İ.A.Krılov), "Cütcü" (M.Ə.Sabir), "Hacı Seyyid Əzimin oğluna nəsihəti" (S.Ə.Şirvani) və s. kimi hekayə və şeirlər məktəbli gəncləri boş oturmamağa, daim mübariz və zəhmətkeş olmağa çağırır. Yalnız bilik sayəsində başqalarına qalib gəlməyi aşılayır.

"Kömək və ittifaq" bölməsinə daxil edilmiş "Himmətlü sükançı" (Volper), "Kamal və balaca dilənçi" ( Gurgani), "Mərhəmətli Fatimə" ("Dəbistan jurnalı") və s. kimi əsərlər məktəbli gənclərə xeyirxahlıq, səxavətli olmaq kimi xüsusiyyətləri aşılayır.

**"**El arasında" sərlövhəsi altında "Ədalətli hakim" (Gurgani), "İki qaranquş" (Müəllim Naci), "Oğru və anası" (A. Səhhət) və s. təqdim edilən hekayə və şeirlər gənc nəsli həyatda nə olursa-olsun, hər zaman ədalətli olmağa, vicdanla, şərəflə yaşamağa, həyatda heç kəsə pislik etməməyə çağırır. Bu bölmədə Füyuzat jurnalından təqdim edilmiş **"**Bir mələyin insanlara xitabı" adlı şeirdə mələk insanalara xitab edərək yer üzündə fitnə-fəsad törədənlərin də elə insanların içindən olduğunu bildirir:

Səmadən bir mələk heyrətlə der, insanlar, insanlar!
Nədir bu ruyi-ərzi qaplıyor al qanlar, insanlar!
Şəhid tiğiniz əxvanınızdən almasun fəryad!
Əcəb kimdir şu xunalud olan bicanlar? İnsanlar!
Ölən kim, öldirən kim, zülm edən kim? Ağlayan kimdir?
Bir az fikr eyləyin, sizdən degilmi anlar? İnsanlar!
Fədayi-zülmünüz sizdən, sizin cəlladınız sizdən!
Nasıl qail olar bu halə ya vicdanlar? İnsanlar! ... (4, s.52).

Şeirin sonunda Mələk insanları Allahdan qorxmağa, pis əməllərdən uzaq olmağa və şeytani hissləri özlərindən uzaq tutmağa çağırır:

... Mübəşşirmisiniz cənnətlə? Yoqmı xofi-rübani?
Kitabi-Allahı bir təftiş edin, fəttanlar, insanlar! (4, s.52).

Kitaba "İnsan", "Heyvanat", "Nəbatat", "Coğrafiya məlumatı" başlıqları altında daxil edilən digər bölmələrdə müxtəlif hekayə və şeirlər verilmişdir ki, bunlar da məktəblilərin anatomiya, zoologiya və coğrafiya sahəsindəki biliklərinin artmasında mühüm rol oynayır.

**Nəticə.** Göründüyü kimi, haqqında bəhs edilən dərsliklərə daxil edilmiş mətnlər A.Səhhət,M.Ə.Sabir,H.Zərdabi kimi Azərbaycan müəlliflərilə yanaşı, İ.Krılov, A.S.Puşkin, M.Y.Lermontov, İ.S.Turgenev kimi məşhur rus yazıçılarının əsərlərindən tərcümələrdir.

Gətirilən nümunələrdən də aydın olur ki, dərsliklərdəki istər nəsr, istərsə də nəzm əsərləri sadə, tez anlaşılan dildə yazıldığı üçün gənclərdə ədəbi dilin asanlıqla formalaşmasına kömək edir. Dərsliyin müəllifləri onu ibtidai sinif şagirdləri üçün nəzərdə tutduğuna görə olduqca sadə materiallar əsasında tərtib etmiş, digər tərəfdən də həmin materialları yerli-yerində verməklə eyni zamanda şagirdlərin əylənərək, yorulmadan təhsil, təlim almalarına imkan yaratmışdır.

Professor Abbas Zamanov bu dərsliklərin ərsəyə gəlməsində görkəmli pedaqoq A.Səhhətin yaradıcılığını xüsusi qiymətləndirərək yazır:

"Səhhətin gözəl uşaq şeirləri yetmiş ildir ki, dərsliklərimizin səhifələrindən düşmür, bu gün də məktəblilərimizin dilinin əzbəridir. Abbas Səhhətin şair, tərcüməçi, ictimai xadim, həkim, müəllim kimi gördüyü işləri, xalqa etdiyi xidmətlərin on illik ümumi mənzərəsinə nəzər saldıqda heyrətə gəlir, inanırsan ki, o, bu illərdə xalqın mədəni inkişafı üçün əlindən gələn hər şeyi etmiş, heç bir fədakarlıqdan çəkinməmişdir. İnanırsan ki, o, çoxcəhətli yaradıcılığında və fəaliyyətində yalnız bircə məqsəd düşünür:

Fikrimiz tərbiyeyi-millətdir,
Qəsdimiz millətə bir xidmətdir" (2, s.16).

Onu da qeyd edək ki, XX əsrin əvvəlllərindən dövrümüzə qədər gəlib çatmış bu cür dərsliklər istər həmin dövrün ədəbi dil xüsusiyyətlərini, istərsə də pedaqoji tariximizi öyrənmək baxımından əvəzolunmaz əhəmiyyətli mənbədir.

**Ədəbiyyat:**

1. A. Abdullayev. Azərbaycan dilinin tədrisi tarixindən. Bakı: Maarif ,1966, 329 s.
2. Xalqın həbibi və təbibi – Abbas Səhhət / tərt. ed. : Ruhiyyə Məmmədli, Sevil Əhmədova. – Bakı: F. Köçərli ad.Respublika Uşaq Kitabxanası, 2019, 58 s.
3. محمود محمودبك اوف’عباس صحت. تورك ادبياتنه :مكتبك ايليقتريق مطبعه سى’ ١٩١٤’ ١٥٨ص . الك قدم. باكو
4. محمود محمودبك اوف’عباس صحت. يڭى : قاسپى’١٩٠٩’١٥٨ ص . مكتب .باكو
5. "Rəhbər" jurnalı, 1906-cı il, №1, 16 s.

***Насирова Саадат***

**РОЛЬ ВИДНЫХ ПЕДАГОГОВ В СОЗДАНИИ УЧЕБНИКОВ В НАЧАЛЕ XX ВЕКА В АЗЕРБАЙДЖАНЕ**

**Резюме**

Статья посвящена просветительской деятельности выдающихся деятелей просвещения Махмудбека Махмудбекова, Аббаса Саххата, занимающих видное место в истории педагогики Азербайджана. В статье также предоставлена иформация об учебниках нового типа, изданных в начале XX века, анализируются произведения Махмудбека Махмудбекова и Аббаса Саххата "Первый шаг к турецкой литературе" (1914г.) и "Новая школа" (1909 г.).

**Ключевые слова:** *Махмудбек Махмудбеков, Аббас Саххат, журнал "Рехбер", учебник, литература, педагог, педагогика Азербайджана.*

***Nasirova Saadat***

**THE ROLE OF THE EMİNENT PEDAGOGUES İN CREATİNG THE TEXTBOOKS İN AZERBAİJAN İN THE BEGİNNİNGS OF THE 20TH CENTURY**

**Summary**

The article includes new-style textbooks published in the early twentieth century, the activities of prominent educators in the field of education Mahmud bey Mahmudbeyov and Abbas Sahhat, which have a special place in the pedagogical history of Azerbaijan, their textbooks "The First Step to Turkish Literature" (1914) and "New School" (1909).

**Key words:** Mahmud bey Mahmudbeyov, Abbas Sahhat, magazine "Rahbar", textbook, literature, pedagogue, Azerbaijan pedagogy.

*Redaksiyaya daxil olma tarixi: 07.12.2020*
*Çapa qəbul olunma tarixi: 15.12.2020*

*Filologiya üzrə fəlsəfə doktoru Əzizağa Nəcəfov tərəfindən nəşrə tövsiyə olunmuşdur.*